# ƏLİYEV RÖVŞƏN NƏRİMAN OĞLU



Rövşən Əliyev 30 avqust 1972-ci ildə Bakı şəhərində doğulmuşdur. 1989-cu ildə Xətai rayonundakı 254 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Politexnik İnstitutunun (indiki Texniki Universitet) Maşınqayırma fakültəsinə daxil olmuşdur. 1990-cı ildə baş verən Qanlı Yanvar faciəsi hər bir Vətən övladı kimi Rövşənə də çox ağır təsir etmişdi. Bu səbəblə də 1991-ci ilin mayında o, könüllü olaraq orduya yazıldı. Sonra Ağdamda yaradılmış milli müdafiə taborunun tərkibində döyüşə atılaraq Sırxavənd, Qazançı kəndlərinin düşməndən azad edilməsində yaxından iştirak etmişdir. O, 1992-ci ilin martında Muğanlı, Şıxbabalı yüksəkliklərində mövqe tutma tapşırığında düşmənin xeyli sayda canlı və texniki qüvvəsini məhv etmişdir. 8 may 1992-ci ildə Fərrux əməliyyatında bir daha cəsurluq göstərmişdir. Tələbə-döyüşçü 13 may 1992-ci ildə Ağbulaq-Dəhraz əməliyyatlarında xüsusilə fərqlənir. Bu kəndlər erməni quldurlarından təmizlənir. 14 iyunda düşmən yenidən böyük qüvvə ilə Dəhraz kəndinə hücum edir. Əsgərlərimiz mühasirəyə düşür. Rövşən yaralı yoldaşlarının düşmən əlinə keçməməsi üçün böyük şücaət göstərərək onları döyüş meydanından uzaqlaşdırmağa müvəffəq olur. Növbəti dəfə komandirini xilas edərkən başından yaralanır. Bir qədər sonra o, həlak olur. Qəhrəman döyüşçü Bakıdakı Şəhidlər Xiyabanında dəfn olunub. Subay idi. Azərbaycan Respublikası prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 saylı fərmanı ilə Əliyev Rövşən Nəriman oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Vaxtilə təhsil aldığı Bakı şəhərindəki 254 saylı orta məktəb 1995-ci ildən qəhrəmanın adını daşıyır. Və Bakı şəhərindəki küçələrdən birinə qəhrəmanın adı verilmişdir.